# Azərbaycan və Albaniya milli kitabxanaları arasında qarşılıqlı əlaqələr genişlənir

**Yanvarın 28-də Albaniyanın ölkəmizdəki səfiri Besart Kadia Azərbaycan Milli Kitabxanasında olub. Bu barədə AZƏRTAC-a Milli Kitabxanadan məlumat verilib.**



Bildirilib ki, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov qonağa kitabxana haqqında məlumat verib. Bildirilib ki, 5 milyona yaxın kitab fondu olan Milli Kitabxana dünyanın 90 ölkəsinin milli kitabxanaları ilə kitab mübadiləsini həyata keçirir, 54 ölkənin milli kitabxanası ilə qarşılıqlı əməkdaşlığa dair memorandum imzalayıb. Kərim Tahirov Milli Kitabxananın fəaliyyəti, həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat verərək, Azərbaycan Milli Kitabxanasının Albaniya Milli Kitabxanası ilə qarşılıqlı əməkdaşlıq haqqında memorandumun 2022-ci ildə imzalandığını bildirib.

2025-ci ildə Albaniya Milli Kitabxanasında Azərbaycan ədəbiyyatı bölməsinin açıldığını xüsusilə vurğulayan direktor Milli Kitabxanada da belə bir bölmənin 2 il əvvəl yaradıldığını səfirin diqqətinə çatdırıb.

Səfir Albaniya Milli Kitabxanası ilə Azərbaycan Milli Kitabxanası arasında qarşılıqlı əlaqələrin, eləcə də beynəlxalq kitab mübadiləsinin genişləndirilməsində öz dəstəyini göstərəcəyini bildirib. O, Azərbaycan Milli Kitabxanası ilə əməkdaşlığa hər zaman hazır olduğunu və burada albaniyalı yazıçı və şairlərin səfirlik tərəfindən türk və Azərbaycan dilində nəşr olunmuş kitablarının təqdimatının keçirilməsinin vacibliyinə diqqət çəkib.

Görüşdə hər iki ölkənin kitabxana mütəxəssisləri arasında qarşılıqlı təcrübə mübadiləsi, kitabxanalarda mövcud olan kitablar və əlyazmaların qorunması, rəqəmsallaşdırılması və elmi dövriyyəyə cəlb edilməsi sahəsində əməkdaşlıq barədə də fikir mübadiləsi olmuşdur.

Direktor qonaqlara ölkəmizlə bağlı kitablarını hədiyyə edib.

Sonra qonaqlar Azərbaycan Milli Kitabxanası ilə tanış olub və kitabxananı çox bəyəndiklərini söyləyiblər.

Azərbaycan.-2026.- 30 yanvar (№18).- S.11.